UOT: 327; 930.22
DOI: https://doi.org/10.30546/19063.2026.03.005.2029

# AZƏRBAYCAN RESPUBLIKASI DÜNYA DİPLOMATİYASINDA: REGİONAL LİDERDƏN QLOBAL AKTORA DOĞRU

**SƏBİNƏ ARİF QIZI QARAŞOVA**
*Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent*
*Bakı Dövlət Universiteti*
*Diplomatiya və müasir inteqrasiya proseslər kafedrası*
*Akademik Zahid Xəlilov küçəsi 33, AZ1148*
*E-mail: sabinagarashova@yahoo.co.uk*

## XÜLASƏ

Azərbaycanın son illərdə keçdiyi siyasi və geosiyasi transformasiya ərazi bütövlüyünün tam bərpası ilə yeni strateji mərhələyə daxil olmuşdur. 44 günlük Vətən müharibəsində qazanılan qələbə və 2023-cü il antiterror tədbirləri ölkənin suverenliyini tam şəkildə təmin etməklə regional güc balansını köklü şəkildə dəyişdirmişdir. Postmüharibə dövründə Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma layihələri Azərbaycanın institusional dayanıqlılığını gücləndirərək, Cənubi Qafqazda sosial-iqtisadi sistemin yeni modelini formalaşdırmışdır. Eyni zamanda, Azərbaycanın çoxvektorlu xarici siyasəti və Zəngəzur dəhlizi də daxil olmaqla transregional nəqliyyat və enerji təşəbbüsləri ölkənin qlobal iqtisadi və diplomatik təsirini artırmışdır. Azərbaycanın qlobal siyasi platformalarda aktiv iştirakı onu regional liderdən qlobal aktora çevirən əsas amillərdən biridir. Tədqiqat göstərir ki, ölkənin orta güc statusuna keçidi həm regional sabitliyi təmin edir, həm də qlobal təhlükəsizlik və əməkdaşlıq gündəliyinə real töhfə verir.

**Açar sözlər:** *Azərbaycan Respublikası, geosiyasi reallıqlar, ərazi bütövlüyü, regional liderlik, qlobal aktor.*

## Giriş

Azərbaycanın son iki onillikdə əldə etdiyi hərbi-siyasi üstünlüklər, ərazi bütövlüyünün tam bərpası və post-müharibə mərhələsində regiona təqdim etdiyi yeni geosiyasi reallıqlar ölkənin beynəlxalq münasibətlər sistemində mövqeyini fundamental şəkildə dəyişdirmişdir. Qlobal miqyasda güc mərkəzlərinin yenidən formalaşdığı, enerji təhlükəsizliyi, nəqliyyat-kommunikasiya marşrutları və iqlim diplomatiyasının strateji əhəmiyyət qazandığı bir dövrdə Azərbaycanın regional liderlikdən qlobal aktorluğa doğru irəliləyişi xüsusi əhəmiyyət kəsb edir. Bu dinamika yalnız Cənubi Qafqazın gələcək təhlükəsizlik arxitekturasını deyil, həm də Avrasiya məkanında transregional əməkdaşlığın yeni modelini müəyyənləşdirir. Məhz bu səbəbdən Azərbaycanın hərbi qələbədən sonra siyasi, iqtisadi və diplomatik gücünü strukturlaşdıraraq qlobal səviyyədə formalaşdırdığı təsir imkanlarının elmi təhlili aktuallıq kəsb edir. Bu baxımdan, tədqiqatımızın məqsədi Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpasından sonra yaranmış yeni geosiyasi reallıqlar fonunda ölkənin regional və qlobal siyasətdə artan rolunun analitik şəkildə qiymətləndirilməsidir.

Tədqiqatda əsasən analitik-sistemli yanaşmadan istifadə olunur və Azərbaycanın hərbi-siyasi qələbədən sonrakı beynəlxalq mövqeyinin struktur dəyişiklikləri nəzəri çərçivə ilə müqayisəli şəkildə araşdırılır. Mənbə analizi vasitəsilə rəsmi çıxışlar, diplomatik platformalar və iqtisadi-siyasi sənədlər əsas informasiya bazası kimi dəyərləndirilir. Bununla yanaşı, regiondakı yeni əməkdaşlıq formatları və kommunikasiya xəritələri empirik-siyasi material kimi təhlil edilərək nəticələrin elmi əsaslandırılması təmin olunur.

## Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası və yeni geosiyasi reallıqların formalaşdırılması

Son 22 ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin daxili və xarici siyasi kursunda müşahidə olunan strateji ardıcıllıq ölkədə siyasi sabitliyin qorunmasına və dövlət idarəçiliyinin institusional əsaslarının möhkəmlənməsinə şərait yaratmışdır. Həyata keçirilən iqtisadi modernləşmə siyasəti, təhlükəsizlik strategiyası və beynəlxalq əlaqələrin genişləndirilməsi Azərbaycanın regional və qlobal səviyyədə siyasi mövqeyinin güclənməsinə səbəb olmuşdur. Bunun nəticəsində Azərbaycan beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş və artan geosiyasi əhəmiyyətə malik aktor kimi çıxış etməyə başlamışdır. Bu davamlılıq çərçivəsində həyata keçirilən kompleks islahatlar, iqtisadi modernləşmə gündəliyi, təhlükəsizlik strategiyası və beynəlxalq əlaqələrin genişləndirilməsi Azərbaycanı regional səviyyədə aparıcı mövqeyə, qlobal səviyyədə isə artan siyasi çəkili aktora çevirmişdir. Bu baxımdan, 2020-ci il sentyabrın 27-də Ermənistanın genişmiqyaslı təxribatlarına cavab olaraq başlayan və 44 gün davam edən Vətən müharibəsində əldə edilən qəti qələbə Azərbaycanın müasir tarixində

dönüş nöqtəsi olmuşdur. Azərbaycan Silahlı Qüvvələrinin hərbi-siyasi resurslardan balanslı şəkildə istifadə etməsi nəticəsində ölkənin ərazi bütövlüyünün bərpası təmin edilmiş, işğal altındakı torpaqlar üzərində suverenlik real məzmun kəsb etmişdir. Bu qələbə postsovet məkanında münaqişələrin gedişatı və nəticələrinə dair mövcud nəzəri çərçivələrə yeni empirik material təqdim etməklə yanaşı, regional güc balansını köklü şəkildə dəyişdirmişdir (Cabarov, 2021, s. 127).

Ardınca 2023-cü il sentyabrın 19-20-də yerinə yetirilmiş lokal antiterror tədbirləri Azərbaycan Respublikasının Konstitusiyasının hüquqi qüvvəsini ölkənin bütün ərazilərində bərqərar etməyə imkan vermişdir. Bu proses dövlət suverenliyinin faktiki olaraq tam bərpası anlamına gəlir və uzun illər davam edən münaqişə vəziyyətinə son qoyaraq hüquqi-siyasi vahidliyin təmin edilməsini şərtləndirmişdir. Antiterror tədbirləri həm də regionda separatizmin və qeyri-qanuni silahlı strukturların mövcudluğunun qarşısının alınması baxımından beynəlxalq hüququn fundamental prinsiplərinə uyğun addım hesab olunur (AZƏRTAC, 2024). Bu baxımdan, post-müharibə dövründə Azərbaycan hökumətinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında apardığı bərpa və yenidənqurma siyasəti suveren dövlət anlayışının institusional səviyyədə reallaşmasının bariz nümunəsidir. Bərpa proqramı çərçivəsində infrastrukturun yenidən qurulması, "ağıllı şəhər" və "ağıllı kənd" modellərinin tətbiqi, enerji təhlükəsizliyi və nəqliyyat layihələrinin genişləndirilməsi, həmçinin keçmiş məcburi köçkünlərin öz yurdlarına mərhələli qayıdışı Azərbaycan dövlətinin humanitar və iqtisadi siyasətinin kompleks xarakterini ortaya qoyur (AMEA, 2021).

Azərbaycanın sülh mərhələsində qarşılaşdığı əsas çağırışlardan biri regionda dayanıqlı təhlükəsizlik arxitekturasının formalaşdırılması olmuşdur. Ölkə yeni reallıqları beynəlxalq ictimaiyyətə qəbul etdirmək üçün diplomatik, siyasi və iqtisadi alətləri paralel şəkildə səfərbər etmişdir. Azərbaycanın öz gücünə əsaslanan qələbəsi və onun nəticələrinin beynəlxalq hüquqi diskursda tanıdılması dövlətin xarici siyasətinin çevik, lakin prinsipial mahiyyətini nümayiş etdirmişdir. Bu proses həm də Ermənistan-Azərbaycan münasibətlərinin uzunmüddətli perspektivdə normallaşdırılması üçün baza yaratmışdır. Bu çərçivədə, işğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı layihələr yalnız humanitar baxımdan deyil, həm də regional iqtisadiyyatın struktur yenilənməsi baxımından strateji əhəmiyyət daşıyır. Zəngilan, Şuşa, Ağdam və Füzuli kimi şəhərlərdə reallaşdırılan layihələr Azərbaycanın innovativ inkişaf modelinin real təcəssümü kimi qiymətləndirilə bilər. Bu layihələr həm də regionun iqtisadi inteqrasiyasına təkan verərək Cənubi Qafqazda Azərbaycanın dominant iqtisadi aktor kimi mövqelərini gücləndirir.

44 günlük müharibədən sonra yaranan geosiyasi reallıq Azərbaycanı regionun siyasi, iqtisadi və təhlükəsizlik proseslərində həlledici aktora çevirmişdir. Azərbaycan öz təşəbbüsləri ilə Cənubi Qafqazın enerji və nəqliyyat xəritəsini yenidən formalaşdırmış, yeni kommunikasiyaların açılması prosesində aparıcı mövqeyə yüksəlmişdir. Xüsusilə enerji infrastrukturu, nəqliyyat dəhlizləri və transregional əməkdaşlıq formatları ölkənin regional liderliyinin davamlı xarakterini gücləndirir. Azərbaycanın diplomatik səyləri yalnız regional çərçivə ilə məhdudlaşmır; ölkə qlobal təhlükəsizlik məsələlərinin müzakirə edildiyi aparıcı beynəlxalq platformalarda aktiv mövqe nümayiş etdirir. Prezident İlham Əliyevin BMT Baş Assambleyasının 80-ci sessiyasında, Avropa Siyasi Birliyinin zirvələrində, ŞƏT formatında keçirilən iclaslarda, TDT və MDB dövlət başçılarının toplantılarında iştirakı Azərbaycanın beynəlxalq münasibətlər sistemində artan təsir imkanlarının göstəricisidir (Bayramov, 2023).

Azərbaycan həmçinin regional sülhün, təhlükəsizliyin və iqtisadi kommunikasiyaların bərpasında vasitəçi rolunu oynayan dövlətlərdən birinə çevrilmişdir. 2025-ci il avqustun 8-də Vaşinqtonda Azərbaycan və ABŞ prezidentlərinin, Ermənistanın Baş nazirinin iştirakı ilə keçirilən görüşdə tərəflər arasında sülh sazişinin mətninin paraflanması Azərbaycan diplomatiyasının mühüm nailiyyəti kimi dəyərləndirilə bilər (President.az, 2025). Bu proses regionda uzunmüddətli sabitliyin təmin olunması baxımından əhəmiyyətli mərhələ hesab edilir. Beləliklə, Azərbaycanın müstəqillik dövründə yaratdığı siyasi, hərbi və iqtisadi potensial son 22 ildə ərazi bütövlüyünün və suveren hüquqların bərpası ilə öz kulminasiya nöqtəsinə çatmışdır. Bu reallıq yalnız dövlət idarəçiliyi baxımından deyil, həm də beynəlxalq münasibətlər nəzəriyyəsi kontekstində orta güc konsepsiyasına yeni empirik material təqdim edir və Azərbaycanı regional liderdən qlobal aktora keçid mərhələsinə çıxarır.

### Azərbaycan Respublikasının dünya diplomatiyasında yeni rolu: regional liderlikdən qlobal aktorluğa uzanan yol

Azərbaycan Respublikasının beynəlxalq münasibətlər sistemində mövqeyinin güclənməsi yalnız hərbi və siyasi qələbələrlə deyil, həm də ölkənin diplomatik fəallığının institusional xarakter alması ilə bağlıdır. Azərbaycan son illərdə mühüm beynəlxalq

platformalarda təşəbbüskar aktor kimi çıxış edərək qlobal dialoqa töhfə verən dövlət statusunu möhkəmləndirmişdir. Dövlət başçısının müxtəlif qlobal və regional forumlarda çıxışları və fəal iştirakı Azərbaycanın beynəlxalq siyasətin gündəmində mühüm mövzuların formalaşmasında real pay sahibi olduğunu göstərir. Azərbaycanın xarici siyasəti öz mahiyyəti etibarilə çevik, milli maraqlara əsaslanan və çoxtərəfli əməkdaşlığa açıq model kimi xarakterizə olunur. Ölkənin həm Qlobal Cənub, həm də Qərb dövlətləri ilə balanslı münasibətlər qurması Azərbaycanın beynəlxalq siyasətdə strateji muxtariyyət prinsipinə sadiq olduğunu nümayiş etdirir. Bu model Azərbaycanı yeni dünya nizamında etibarlı tərəfdaşa çevirir və müxtəlif geosiyasi bloklar arasında körpü rolunu oynamağa imkan verir.

Prezident İlham Əliyevin yüksək səviyyəli beynəlxalq görüşlərdə iştirakı Azərbaycanın siyasi nüfuzunun əhəmiyyətli şəkildə artmasına səbəb olmuşdur. NATO, ŞƏT, TDT, MDB, BMT, Avropa Siyasi Birliyi kimi formatlarda müzakirə olunan məsələlərə Azərbaycanın mövqeyinin diqqətlə dinlənilməsi ölkənin artan strateji çəkisini əks etdirir. Xüsusilə enerji təhlükəsizliyi, nəqliyyat marşrutlarının şaxələndirilməsi, regional sabitlik və iqlim gündəliyi üzrə Azərbaycanın təklifləri qlobal miqyasda qəbul edilən mövqelərdən biridir.

Bununla yanaşı, Zəngəzur dəhlizi ilə bağlı təşəbbüslər Azərbaycanın transregional əlaqə mərkəzi kimi rolunu daha da gücləndirmişdir. Bu dəhlizin Orta Dəhlizin əsas hissəsinə çevrilməsi Azərbaycan vasitəsilə tranzit axınlarını artırmaqla yanaşı, Avrasiya məkanında yeni geoiqtisadi reallıqlar formalaşdırır (Jahangirli & Jabarov, 2024). C5+Azərbaycan və C5+1 formatları çərçivəsində tranzit tariflərinin koordinasiyası göstərir ki, 2030-cu ilə qədər yükdaşımaların həcmi Azərbaycandan keçməklə milyonlarla ton artırıla bilər. Onu da qeyd etmək lazımdır ki, Azərbaycanın enerji və nəqliyyat siyasəti ölkənin qlobal aktor statusunun möhkəmlənməsində əsas strateji dayaqlardan biridir. TAP, TANAP, Bakı-Tbilisi-Qars, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kimi layihələr Azərbaycanın həm enerji ixracında, həm də logistika şəbəkələrinin qurulmasında qlobal mərkəzə çevrilməsinə şərait yaratmışdır. Bu infrastruktur sıçrayışı Azərbaycanın Avropanın enerji təhlükəsizliyi sistemində əsas təchizatçı və tərəfdaş rolunu gücləndirmişdir (AZƏRTAC, 2025).

Azərbaycanın qlobal siyasətdəki rolu yalnız iqtisadi və enerji layihələri ilə məhdudlaşmır. Ölkə həm də beynəlxalq təhlükəsizlik gündəliyində aktiv mövqelərdən birini tutur. Terrorizmə qarşı mübarizə, regional sabitliyin qorunması, sülh quruculuğu və humanitar təşəbbüslər Azərbaycanın qlobal öhdəliklərə sadiqliyinin göstəricisidir. Azərbaycan həmçinin BMT çərçivəsində müxtəlif təşəbbüslərin müəllifi və fəal müdafiəçisi kimi çıxış edir. Post-müharibə dövründə Azərbaycanın regional liderliyi yeni xarici siyasət konsepsiyası ilə möhkəmləndirilmişdir. Bu konsepsiyanın əsas məqsədlərindən biri Cənubi Qafqazın müasir geosiyasi nizamının Azərbaycan tərəfindən müəyyənləşdirilməsi və regionun təhlükəsizlik arxitekturasında əsas aktor statusunun qorunmasıdır. Azərbaycanın həm Türkiyə, həm də Mərkəzi Asiya dövlətləri ilə siyasi, iqtisadi və mədəni əməkdaşlıq formatları bu strategiyanın səmərəliliyini artırır.

Azərbaycan yeni qlobal çağırışlar kontekstində, xüsusilə iqlim dəyişmələri, rəqəmsallaşma və enerji keçidi sahələrində də irəliyə doğru proqressiv siyasət yürüdür. "Yaşıl enerji" zonalarının yaradılması, transsərhəd kabel layihələri, rəqəmsal dəhliz təşəbbüsləri və COP29-un Bakıda keçirilməsi Azərbaycanın qlobal iqlim diplomatiyasında mühüm rol oynadığını təsdiqləyir. Bu təşəbbüslər Azərbaycanı yalnız regional deyil, həm də qlobal miqyasda dayanıqlı inkişaf üzrə əsas aktora çevirir (Qurbanov, 2024; Zeynalova, 2024). Xüsusilə qeyd olunmalıdır ki, Azərbaycanın beynəlxalq səviyyədə artan nüfuzu həm də onun çoxvektorlu diplomatiya modelinin səmərəliliyi ilə bağlıdır. Dövlət öz milli maraqlarını qlobal səviyyədə müsbət şəkildə müdafiə edir və müxtəlif güc mərkəzləri ilə əməkdaşlığı paralel şəkildə inkişaf etdirir. Bu siyasət Azərbaycanın həm regional, həm də qlobal sistemdə müstəqil mövqeyini qorumasına imkan verir və ölkəni yeni "orta güc" modelinin avanqard təmsilçilərindən birinə çevirir.

Beləliklə, Azərbaycan Respublikasının dünya diplomatiyasında qazandığı mövqe onun son 20 ildə həyata keçirdiyi ardıcıl siyasətin məntiqi nəticəsidir. Regional lider statusunu aşaraq qlobal aktor səviyyəsinə yüksələn Azərbaycan beynəlxalq münasibətlər sistemində özünəməxsus yer tutmuş, həm regional sabitliyin təminatında, həm də qlobal problemlərin həllində aktiv və məsuliyyətli iştirakçıya çevrilmişdir. Bu mövqe gələcəkdə də Azərbaycan dövlətinin strateji inkişaf xəttinin əsas istiqamətlərini müəyyən edəcək.

## Nəticə

Beləliklə, tədqiqatımızın nəticələrinə əsasən deyə bilərik ki, Azərbaycan Respublikasının son iki onillikdə keçdiyi inkişaf mərhələsi göstərir ki, ölkə yalnız hərbi-siyasi gücünü bərpa etməklə kifayətlənməmiş, həm də regional və qlobal sistemdə yeni struktur reallıqların formalaşmasına təsir göstərən aktora

çevrilmişdir. 44 günlük Vətən müharibəsində qazanılan Qələbə və ardınca həyata keçirilən antiterror tədbirləri Azərbaycanın suveren hüquqlarının tam bərpasını təmin etməklə yanaşı, postsovet məkanında münaqişələrin həlli modelləri üçün yeni presedent yaratmışdır. Bu presedent yalnız güc amilinin deyil, strateji idarəetmə, legitimlik və beynəlxalq hüquqa əsaslanan siyasi davranışın kompleks sintezini özündə ehtiva edir. Məhz bu səbəbdən Azərbaycanın qurduğu postmüharibə siyasəti təkcə ərazi bütövlüyünün bərpası məqsədinə xidmət etməmiş, həm də Cənubi Qafqazın gələcək təhlükəsizlik arxitekturasının əsas konturlarını müəyyən edən struktur dəyişikliklərə yol açmışdır. Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa layihələri, yeni logistika və enerji xətləri, iqtisadi rayonların modernləşdirilməsi və reinteqrasiya prosesləri Azərbaycan dövlətçiliyinin institusional dayanıqlığını gücləndirərək, onun uzunmüddətli inkişaf modelinin əsas sütunlarını formalaşdırmışdır.

Digər tərəfdən, Azərbaycanın dünya diplomatiyasında artan nüfuzu ölkənin xarici siyasətinin çoxvektorlu, balanslı və praqmatik xarakteri ilə sıx bağlıdır. Yeni geosiyasi nizamın formalaşdığı bir dövrdə Azərbaycan qlobal enerji təhlükəsizliyi, nəqliyyat-kommunikasiya infrastrukturu, iqlim gündəliyi və regional sabitlik kimi fundamental məsələlərdə qlobal aktor kimi çıxış edir. Zəngəzur dəhlizi, Orta Dəhliz və C5+Azərbaycan əməkdaşlıq formatları ölkəni Avrasiya məkanında strateji qovşağa çevirərək, onun qlobal iqtisadi sistemdə rolunu artırır. Bununla yanaşı, COP29-un Bakıda keçirilməsi Azərbaycanın beynəlxalq iqlim siyasətində nüfuzunu gücləndirməklə, onu qlobal davamlı inkişaf diplomatiyasının mərkəzinə çıxarır. Eyni zamanda, 17-22 may tarixlərində Ümumdünya Şəhərsalma Forumunun (WUF13) Azərbaycanda keçirilməsi ölkənin beynəlxalq platformalarda artan nüfuzunu və qlobal inkişaf gündəliyində fəal iştirakını göstərən mühüm amillərdən biri kimi qiymətləndirilə bilər. Bütün bu istiqamətlərin sintezi göstərir ki, Azərbaycan artıq yalnız regional problemlərin həllində deyil, qlobal proseslərin idarə edilməsində də təsir imkanlarına malikdir. Beləliklə, ölkənin həm regional liderlikdən qlobal aktorluğa keçidi, həm də orta güc kimi formalaşan yeni kimliyi XXI əsrin dəyişən beynəlxalq sistemində Azərbaycanın sabit və proqnozlaşdırıla bilən aktor kimi mövqeyini möhkəmləndirir.

## ƏDƏBİYYAT SİYAHISI:


1. *AMEA. (2021, 2 iyun). "Ağıllı şəhər", "ağıllı kənd" layihələrinin tətbiqi Qarabağ regionunun inkişafında mühüm rol oynayacaq. https://science.gov.az/az/news/open/17052*
2. *AZƏRTAC. (2024, 19 sentyabr). Hərb tariximizin ən parlaq səhifələrindən olan antiterror əməliyyatından bir il ötür. https://azertag.az/xeber/herb_tariximizin_en_parlaq_sehifelerinden_olan_antiterror_emeliyyatindan_bir_il_otur-3186266*
3. *AZƏRTAC. (2025, 19 noyabr). Prezident İlham Əliyevin nəqliyyat diplomatiyası Azərbaycanın C5 məşvərət formatında iştirakı kontekstində. https://azertag.az/xeber/prezident_ilham_aliyevin_neqliyyat_diplomatiyasi_azerbaycanin_c5_mesveret_formatinda_istiraki_kontekstinde____serh-3869135*
4. *Bayramov, C. (2023, 11 oktyabr). Böyük zəfərə aparan İLHAM ƏLİYEV diplomatiyası. "Azərbaycan" qəzeti. https://azerbaijan-news.az/az/posts/detail/boyuk-zefere-aparan-ilham-eliyev-diplomatiyasi-1696974692*
5. *Cabarov, C. (2021, 14 oktyabr). İkinci Qarabağ müharibəsinin regional və qlobal nəticələri. Azərbaycan Respublikası 30 ildə: Cənubi Qafqazın güc mərkəzi (s. 127). Bakı: AMEA Qafqazşünaslıq İnstitutu.*
6. *Jahangirli, J., & Jabarov, J. (2024). The significance of Zangezur Corridor for global powers in the complex geopolitical conjuncture. In Beynəlxalq nəqliyyat-logistika dəhlizləri: Zəngilandan inkişaf impulsları (pp. 383–392). Bakı.*
7. *President.az. (2025, 9 avqust). Azərbaycan Prezidentinin və Ermənistanın Baş nazirinin Vaşinqton şəhərində keçirilmiş görüşünə dair Birgə Bəyannamə imzalanıb. https://president.az/az/articles/view/69572*
8. *Qurbanov, S. (2024, 28 noyabr). "Yaşıl diplomatiya"nın möhtəşəm qələbəsi. "Azərbaycan" qəzeti. https://azerbaijan-news.az/az/posts/detail/yasil-diplomatiyanin-mohtesem-qelebesi-1732745665/345856*
9. *Zeynalova, Ş. (2024, 22 iyun). Yaşıl Enerji Diplomatiyası: Azərbaycanın enerji strategiyasında yeni dövr. "Xalq" qəzeti. https://xalqqazeti.az/az/siyaset/184185-yasil-enerji-diplomatiyasi-azerbaycanin-enerji*

# АЗЕРБАЙДЖАНСКАЯ РЕСПУБЛИКА В МИРОВОЙ ДИПЛОМАТИИ: ОТ РЕГИОНАЛЬНОГО ЛИДЕРА К ГЛОБАЛЬНОМУ АКТОРУ

**Сабина Ариф Гарашова**
***Доц. Бакинский Государственный Университет Кафедра Дипломатии и современных интеграционных процессов***

## РЕЗЮМЕ

Политическая и геополитическая трансформация Азербайджана в последние годы вступила в новый стратегический этап после полного восстановления территориальной целостности страны. Победа в 44-дневной Отечественной войне и контртеррористические меры 2023 года обеспечили полный суверенитет Азербайджана и кардинально изменили баланс сил в регионе. В поствоенный период масштабные работы по восстановлению и реконструкции в Карабахе и Восточном Зангезуре укрепили институциональную устойчивость государства и способствовали формированию новой социально-экономической модели на Южном Кавказе. Одновременно многовекторная внешняя политика и трансрегиональные инициативы, включая Зангезурский коридор, существенно расширили глобальное экономическое и дипломатическое влияние Азербайджана. Активное участие страны в ведущих международных платформах укрепило переход Азербайджана от регионального лидерства к статусу глобального актора. Исследование показывает, что усиление роли Азербайджана как «средней державы» способствует не только региональной стабильности, но и внесению весомого вклада в глобальную повестку безопасности и сотрудничества.

**Ключевые слова:** *Азербайджанская Республика, геополитические реалии, территориальная целостность, региональное лидерство, глобальный актор.*

# THE REPUBLIC OF AZERBAIJAN IN WORLD DIPLOMACY: FROM REGIONAL LEADER TO GLOBAL ACTOR

**Sabina Arif Garashova**
***Ph.D. (Political Science), Department of Diplomacy and Contemporary Integration Processes, Baku State University***

## SUMMARY

Azerbaijan's recent political and geopolitical transformation has entered a new strategic phase following the full restoration of its territorial integrity. The victory in the 44-day Patriotic War and the 2023 counterterrorism measures ensured complete sovereignty and fundamentally reshaped the regional balance of power. In the post-war period, large-scale reconstruction efforts in Karabakh and Eastern Zangezur have strengthened Azerbaijan's institutional resilience and contributed to shaping a new socio-economic model in the South Caucasus. Simultaneously, the country's multivector foreign policy and transregional initiatives, particularly the Zangezur Corridor, have significantly expanded Azerbaijan's global economic and diplomatic influence. Active participation in leading international platforms has further consolidated Azerbaijan's transition from a regional leader to a global actor. The study demonstrates that Azerbaijan's emergence as a middle power not only ensures regional stability but also provides meaningful contributions to global security and cooperation agendas.

**Keywords:** *Republic of Azerbaijan, geopolitical realities, territorial integrity, regional leadership, global actor.*

*Rəyçi: Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Afət Səfərova*
*Məqalə redaksiyaya daxil olub: 04.01.2026*
*Çapa qəbul olunub: 29.02.2026*

*The date of the admission of the article to the editorial office: 04.01.2026*
*Accepted for publication: 29.02.2026*